nən bir ay qalmış başlanır. Bu müddət ərzində hər çərşənbə axşamı həyət və küçələrdə tonqal qalanır, üstündən tullanırlar. Dörd həftə qeyd olunma müqəddəs sayılan ünsürlər – su, od, torpaq və hava ilə bağlıdır.

Şadlığın, şənliyin zirvəsi ilin axırıncı çərşənbə axşamı sayılır. Süfrəyə ən azı 7 növ şirniyyat və nemət düzülməlidir. Hər evdə plov bişirilir, qırmızı və digər rənglərdə al-əlvan boyanmış yumurtalar qoyulur. Süfrənin, ümumiyyətlə, evin-eşiyin, otağın ən vacib tələblərindən biri süfrədə səməninin olmasıdır. Məhəllələrdə, xüsusən kənd yerlərində uşaqlar və gənclər qapı-qapı gəzib bayram hədiyyələri toplayırlar. Şənliklər gecə səhərə kimi davam edir, oynayır, oxuyur, əylənirlər. Qızlar, oğlanlar ürəklərində niyyət tutub qapıları, həyət-bacaları pusurlar. Odur ki, həmin axşam hamı çalışır ki, xoş söz desin, ürəkaçan ifadələr işlətsin, gözəl əhval-ruhiyyə doğursun.

Tarixi-mədəni təcrübənin müasir həyata tətbiq olunması əsasən kütləvi tədbirlərdə baş verir. Məsələn, mədəniyyət müəssisələri tərəfindən hazırlanan bədii-kütləvi tədbirlərdə xalqımızın milli-etnik xüsusiyyətlərini, bədii-estetik fikirlərini əks etdirən folklor nümunələri ilə yanaşı, müasir incəsənət nümunələrindən istifadə olunur. Bunun da nəticəsində həm sosial təcrübənin yeni nəslə ötürülməsi funksiyası yerinə yetirilir, həm də xalqın yaradıcılıq mədəniyyəti, bədii-estetik şüuru, mənəvi səviyyəsi daima inkişaf edir.

Kulturoloji düşüncə xalqın tarixini, onun sosial-iqtisadi və ənənəvi təkamülünü, təbiətə və cəmiyyətə münasibətini, dünyagörüşü və ictimai şüurunun yetkinlik səviyyəsini göstərən sosial-bədii hadisə, sosial-mənəvi fenomendir. Kulturoloji vahidlər mədəniyyətin ən qədim və daim təkrarlanan elementi kimi həmişə birliyin, həmrəyliyin formalaşması və təsdiqinin ən mühüm vasitəsi olmuş, insanın sosiallaşmasına təkan vermişdir. Bədii-estetik mahiyyət kəsb edən bu fenomen bəşəriyyətin ibtidai dövrlərindən etibarən insanların heyvanlardan fərqli olaraq unikal yaşayış qabiliyyətinə, həyat tərzinə sahib olduğunu təsdiqləyir. Bu zaman insanlar özlərindən əvvəlki nəsillərin mədəni təcrübəsini mənimsəmək imkanı əldə edir, digər insanların sevincini öz həyatlarına daxil etmək vərdişlərinə yiyələnir və bəşəriyyətin gələcəyini proqnozlaşdırırlar.

**Ədəbiyyat**


1. *Hüseynov İ. Milli-mənəvi dəyərlərin mühafizəsində «Tətbiqi kulturologiya» elminin vəzifələri «Mədəniyyət dünyası» məcmuəsi, 2005.*
2. *Azərbaycan prezidenti Heydər Əliyevin bəyanatı. «Ədəbiyyat» qəzeti, 17 avqust 2001-ci il.*
3. *Nəbiyev A. Mərasimlər, adətlər, alqışlar. B. 1993.*
4. *Məmmədov Ə. Milli adət və ənənələr. B. «Mars-Print», 2000.*
5. *Cavad Heyət. Türklərin tarix və mədəniyyətinə bir baxış. B. «Azərnəşr», 1993.*
6. *Məmmədov M., Mahmudov P., Cəlilov M. Cəmiyyət, din və ateizm. B. Azərbaycan Dövlət Nəşriyyatı, 1985.*
7. *Məmmədov Ə., Quliyev N. Azərbaycanda adət və ənənələr. B. 1966.*
8. *Xəlilova F. Adət və ənənələr. B. «Azərnəşr», 1986.*
9. *Hüseynov Ş. Mənəvi irsimiz və gerçəklik. B. «Ağaoğlu», 2004.*
10. *Cavad Heyət. Azərbaycan şifahi xalq ədəbiyyatı. B. «Azərnəşr», 1990.*
11. *Белинский В.Г. Избранные произведения в 3-х т. Т.I. М.изд. «Художественная литература», 1948.*
12. *Şükürov A. İslam, adət və ənənə. B. Azərbaycan Dövlət Nəşriyyatı, 1981.*
13. *Qasımzadə F. «Novruz» - bahar bayramı. B.1989.*



**ADMİU-nun Kulturologiya fakültəsi tərəfindən təqdim edilib - 27.12.2006.**
**Rəyçi: fəlsəfə elmləri doktoru, professor N.Mehdi**


## National customs and traditions as moral values


### Summary

National customs and traditions have been looked into as moral values. Many field-works carried out in the direction of protecting and propaganda of our national customs and traditions as moral values in this article. Urgent matters in this area in modern times have been put in the centre of attention.


## Национальные традиции и обычаи, как моральные и нравственные ценности


### Резюме

В статье анализируются национальные традиции и обычаи в контексте моральных и нравственных ценностей, исследуется культурное наследие, раскрывается, имеющийся в этой области богатый опыт, применение научных методов изучения истории возникновения традиций и обычаев и их теоретического и практического обоснования.